Kərim Tahirov,
Azərbaycan Milli Kitabxanasının direktoru,
professor, Əməkdar mədəniyyət işçisi
ktahirov@anl.az

MÜASİR DÖVRDƏ KİTABXANALAR ÜÇÜN YENİ ÇAĞIRIŞLARIN, YENİ İDEYALARIN VƏ YENİ TƏLƏBLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə: *Məqalədə Milli Kitabxanada həyata keçirilən innovativ yeniliklər və metodlardan, onların tətbiqi təcrübəsi və istiqamətlərindən, iş proseslərinin avtomatlaşdırılması və təkmilləşdirilməsinə yönəldilmiş tədbirlərdən bəhs edilmişdir. Dünya təcrübəsinə əsaslanan yeni və mütərəqqi iş formalarının tətbiqi imkanları, virtual xidmət növləri, kitabxananın biblioqrafik tərtib işi sahəsindəki fəaliyyəti və s. haqqında məlumat verilmişdir.*

Açar sözlər: *innovativ yeniliklər, onlayn kitabxana xidməti, elektron resurslar, elektron məlumat bazası*

Bu günkü informasiyalı cəmiyyət həyatımızın bütün sahələrində informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə elektron xidmətlərin göstərilməsi, kompüterin, internetin insanların məişətinə tam daxil olması və bütün ictimai münasibətlər sistemində virtual, onlayn xidmətlərin daha böyük əhəmiyyət kəsb etməsi ilə xarakterizə olunur.

Fəal həyatımızın bütün sahələrində olduğu kimi, bu dominantlıq və fəal müdaxilə kitabxana işi sahəsində, kitab və mütaliə vərdişlərinin aşılanması sahəsində də özünü göstərməkdədir. Bu gün bütövlükdə kitabxana işi sahəsində təcrübə nəzəriyyənin önündə gedərək ictimai həyatımızın, tələbatçıların, istifadəçilərin tələbatına uyğun olaraq yeniləşməyə, yeni-yeni iş formaları və üsulları axtarmağa vadar edir ki, bu da innovativ və kreativ ideyalara, düşüncələrə söykənir və əsaslanır. Bütün bunlar isə innovasiyaların, innovativ yeniliklərin kitab və mütaliə proseslərinin aktiv iştirakçısına, əsas aparıcı, hərəkətverici qüvvəsinə çevrilməsi ilə nəticələnmişdir.

20-30 il bundan öncə əksər insanlar bir kitabın eyni vaxtda minlərlə oxucu tərəfindən mütaliə imkanları, virtual məkanda oxuculara elektron informasiya-kitabxana xidməti, milyonlarla kitab fonduna malik olan kitabxanaların zəngin kitab fondlarının dünya çapında milyonlarla oxucular üçün əlçatan edilməsini

təsəvvürlərinə gətirə bilməzdilər. Lakin sürətlə dəyişən dünyamızda bütün bunlar və bundan daha çoxu bu günün reallığıdır və müasir kitabxanaları bunlarsız təsəvvür etmək çox çətindir və deyərdim ki, qeyri-mümkündür.

Məhz bu amillər bu gün kitabxanalar üçün yeni çağırışlara, yeni-yeni innovativ, kreativ ideyaların təcrübəyə tətbiqinə yol açır, onları bu işlərə sövq edir. Son vaxtlar professional kitabxana mətbuatında və ədəbiyyatda kitabxana təcrübəsində innovativ yeniliklərin tətbiqi məsələlərinə daha çox rast gəlinir ki, bu da dövrün, zamanın tələbidir və bundan qaçmaq qeyri mümkündür.

Bəzən təcrübədə ənənəvi kitabxana və kitabla elektron kitabxana və elektron kitabın qarşı-qarşıya qoyulması tendensiyası özünü göstərir və hətta ciddi müzakirə və mübahisələrə gətirib çıxarır. Tam məsuliyyəti ilə deyə bilərik ki, bu çox yanlış və təhlükəli tendensiyadır və tamamilə yanlış təsəvvürlü insanların yersiz təxəyyülünün məhsuludur. Ənənəvi kitabxana və kitabla elektron kitabxana və elektron kitab bir-birini tamamlayır və birlikdə oxucuların və istifadəçilərin gündən-günə artan sorğularının tam ödənilməsində zaman və məkan problemlərini tamamilə aradan qaldırır, dünyanın hansı ucqar məkanında, həmin məqamda qapalı və ya açıq məkanda yerləşməsindən asılı olmayaraq istənilən informasiya resurslarının bütün istifadəçilər üçün açıq, əlçatan edilməsinə imkan yaradır. Məhz bu məqamda innovasiyalar, innovativ metodların kitabxana təcrübəsinə tətbiqi kitabxanaların və kitabxanaçıların fəal köməkçilərinə çevrilirlər.

Bu gün dünya kitabxana təcrübəsində innovativ yeniliklərin kitabxana işinə tətbiqi iki istiqamətdə inkişaf edir:

a) bilavasitə kitabxananın divarları arasında oxuculara və istifadəçilərə kitabxana-biblioqrafiya xidmətinin təşkili proseslərinin təkmilləşdirilməsində;

b) virtual oxuculara və istifadəçilərə onlayn, məsafədən kitabxana xidmətinin təşkilində və təkmilləşdirilməsində.

Lakin bu istiqamətin hər ikisində də əsas məqsəd insanların fəal mütaliəyə cəlb olunmasına, onların informasiya ehtiyaclarının ödənilməsinə və yeni informasiya almaq imkanlarının artırılmasına kömək etməyə yönəlmişdir. Burada birinci istiqamət oxuculara və istifadəçilərə kitabxana-biblioqrafiya xidməti proseslərinin avtomatlaşdırılmasına, təkmilləşdirilməsinə və səmərəli təşkilinə yönələn tədbirlər kompleksinin həyata keçirilməsini tələb edir, yəni ənənəvi kitabla xidmətin günün tələbləri səviyyəsində qurulmasına yönəlir və buna xidmət edir. Bu, oxucuların kitabxanaya yazılmasından başlamış oxucular tərəfindən mütaliə olunmuş kitabların qaytarılmasınadak olan bütün kitabxana proseslərini əhatə edir və onların təkmilləşdirilməsinə yönəlir.

Bu gün Azərbaycan Milli Kitabxanasında bu istiqamətdə həyata keçirilən tədbirlər xüsusilə təqdirəlayiqdir və oxuculara kitabxana xidməti ilə əlaqədar bütün proseslərin avtomatlaşdırılması və təkmilləşdirilməsinə xidmət edir. Milli Kitabxanaya yeni daxil olan oxucu öz şəxsiyyətini təsdiq edən sənədini təq-

dim edir və 2 dəqiqə ərzində qeydiyyatdan keçərək elektron oxucu bileti alır, heç bir əlavə sənəd doldurmadan elektron biletini nəzarət-buraxılış məntəqəsində quraşdırılan turniketə vuraraq kitabxanaya daxil olur, heç bir əlavə köməyə ehtiyac duymadan elektron kataloqda istədiyi kitabı taparaq müvafiq düyməni basmaqla birbaşa fond saxlanclarına sifariş edə bilir, həmin dəqiqə onun sifarişinin qəbul olunması barədə kitab verilişi məntəqəsində asılmış ekranda ona məlumat verilir. 5-7 dəqiqə ərzində oxucunun sifarişi yerinə yetirilir və sifariş etdiyi kitabı haradan götürə bilməsi barədə müvafiq məlumat yenidən ekranda yazılır. Sifarişin yerinə yetirilməsi mümkün olmadıqda isə bunun səbəbi barədə 2-3 dəqiqə ərzində ekran vasitəsilə oxucuya məlumat verilir.

Kitabxana fonduna daxil olan informasiya resurslarından səmərəli istifadənin təşkili məqsədilə Milli Kitabxanada elektron resurslardan istifadə üzrə lokal şəbəkə və lokal şəbəkədən istifadə zalı yaradılmışdır. Burada bir elektron resursdan eyni zamanda 25 nəfərin istifadə edə bilməsi üçün imkan yaradılmışdır ki, bu, kitabxanaya məhdud sayda daxil olan kitablardan istifadə üçün növbələri tam aradan qaldırmışdır. Dövri mətbuat materiallarının tam komplektlərinin elektron resurslarının yaradılması da onlardan Lokal Şəbəkədən istifadə üzrə oxu zalında istifadə olunmasına şərait yaradaraq oxucuları köhnə qəzet komplektlərinin saatlarla vərəqləmək kimi əziyyətli işdən də azad etmişdir. Bu zal vasitəsilə oxuculara dünya kitabxanalarının saytlarından istifadə imkanları da yaradılmışdır. Zalda həmçinin respublikamızda yeganə olan mikrofilm materiallarının kompyüter yaddaşına yazılması və CD disklərə köçürülməsi üçün də şərait yaradılmışdır ki, XX əsrin əvvəllərinədək dərc olunan və xarici ölkə kitabxanalarından əldə olunan materialların mikrofilm şəklində olmasını da nəzərə alsaq, bu xidmət növünün elmi işçilər və tədqiqatçılar üçün necə mühüm əhəmiyyət kəsb etdiyini təsəvvür etmək çətin deyildir.

Milli Kitabxanada artıq bir neçə ildir tətbiq olunan virtual biblioqrafik xidmət və virtual-məsafədən kitab sifarişi xidməti də xüsusilə diqqətəlayiqdir. Oxucu ona lazım olan hər hansı mövzu üzrə kitabların kitabxanada olub-olmamasını virtual biblioqrafik xidmət vasitəsilə 20-25 dəqiqəyə öyrənə bilir və kitabxananın fondlarında mövcud olan informasiya resurslarını virtual olaraq evdən və yaxud iş yerindən sifariş edə bilir və o, həm kitabxanaya gələrkən kitabların axtarışına əlavə vaxt itirmir və həm də fondlarda mövcud olmayan resurslar üçün əbəs yerə vaxt itirərək kitabxanaya gəlməkdən azad olur.

Milli Kitabxanada virtual biblioqrafik sorğu xidməti və ədəbiyyatın elektron çatdırılması xidməti də yaradılmışdır ki, bu da respublikamızın region kitabxanaları və xarici ölkələrdəki oxucular üçün tətbiq olunur. Bu xidmət vasitəsilə oxuculara virtual kitabxana xidməti informasiya resurslarının elektron versiyalarının virtual çatdırılmasını əhatə edir. Respublikamızın şəhər və rayon mərkəzi kitabxanalarına konkret sorğu ilə müraciət edən oxucuların müvafiq

materialların kitabxanaların fondlarında olmaması səbəbindən ödənilməsi mümkün olmayan sorğuları virtual xidmət vasitəsilə Milli Kitabxanaya yönəldilir və həmin sorğular müvafiq elektron resursun mövcud olmasından asılı olaraq 10-30 dəqiqə ərzində ödənilir. Elektron versiyası olmayan materiallar dərhal skan olunaraq elektron resurs halında yerlərə çatdırılır. Bu işin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, şəhər və rayon mərkəzi kitabxanalarda Milli Kitabxana tərəfindən elektron çatdırılma yolu ilə daxil olan elektron resursların bazaları tədricən formalaşmağa başlayır ki, gələcəkdə də bu materiallar digər oxucuların müvafiq sorğularının ödənilməsində istifadə olunurlar. Göründüyü kimi, Milli Kitabxananın Sənədlərin Elektron Çatdırılması xidmətindən fəal istifadə edən kitabxanalarda tədricən zəngin elektron məlumat bazalarının formalaşmasına geniş imkanlar açılır.

Milli Kitabxanada tətbiq olunan innovativ yeniliklərdən biri də kitabxananın nəzdində həftənin bütün günləri bütün gün ərzində fasiləsiz işləyən və oxuculara və şəhərimizin qonaqlarına fasiləsiz kitabxana xidmətinin göstərilməsinə şərait yaradan "Açıq Kitabxana" layihəsinin həyata keçirilməsidir. Artıq il yarımlıq bir müddət ərzində fəaliyyət göstərən bu layihə oxucuların fəal mütaliə ilə məşğul olduqları asudə vaxt mərkəzinə çevrilmişdir. Qısa bir müddətdə burada oxucular virtual elektron xidmətlər təqdim olunmuş, "Açıq Kitabxana"nın saytı və elektron kataloqu yaradılmışdır, burada hər gün yeni qəzet və jurnalların verildiyi dövri mətbuat guşəsi və Elektron kitab satışı məntəqəsi də yaradılmışdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyini kollegiyasının 10 oktyabr 2017-ci il tarixli qərarı ilə "Açıq Kitabxana" layihəsi innovativ iş təcrübəsi kimi təsdiq olunmuş və respublikamızın kitabxanalarında geniş tətbiqi tövsiyə olunmuşdur. Artıq regionlarda bu layihənin kiçik formatda tətbiqinə başlanılmışdır. Dünya kitabxana təcrübəsində analoqu olmayan bu layihə gündən-günə təkmilləşdirilir və yeni iş üsulları ilə onun işi zənginləşdirilir, əhatə dairəsi və imkanları genişləndirilir. Bu gün "Açıq Kitabxana"da Azərbaycan Yazıçılar Birliyi, müxtəlif nəşriyyatlar və təşkilatlarla, orta məktəblərlə birlikdə müntəzəm olaraq poeziya axşamları, yazıçı və şairlərlə görüşlər, yeni kitabların təqdimatları və imza törənləri, müsiqili ədəbi məclislər, qrup halında kitab müzakirələri, yaxınlıqdakı məktəblərin şagirdləri ilə sinifdənkənar məşğələlər və mütaliəyə maraq oyadan digər çox maraqlı tədbirlər keçirilir.

İnnovativ yeniliklərin kitabxana işinə tətbiqinin ikinci istiqaməti Milli Kitabxananın öz saytı, elektron kataloqu və elektron kitabxanası, müxtəlif mövzulu Elektron-Məlumat Bazalarının tərtibi layihələrinin həyata keçirilməsi yolu ilə kitabxanadan kənarda istifadəçilərə və virtual oxuculara xidmət işinin təkmilləşdirilməsinə və optimallaşdırılmasına yönəldilmişdir. Buraya saytın, elektron kataloqun və elektron kitabxananın daima təkmilləşdirilməsi və optimallaşdırılması,

yeni və daha operativ imkanların yaradılması, dünya təcrübəsindən istifadə edərək yeni və mütərəqqi iş formalarında istifadə olunması daxildir.

Kitabxananın Elektron kataloqu dünyanın iri kitabxanalarında daha çox tətbiq olunan və məxsusi olaraq milli və universitet kitabxanaları üçün işlənib hazırlanmış orakle üzərində qurulmuş VİRTUA kitabxana proqramı əsasında qurulmuşdur. 2003-cü ildən yeni versiyalarla təkmilləşdirilən bu proqram uğurla tətbiq olunmuş və 2015-ci ildə tamamilə yeni versiyası olan CAMO proqramı alınaraq kitabxananın serverində quraşdırılmışdır. Bu isə ilk növbədə elektron kataloqun axtarış imkanlarının xeyli genişləndirilməsinə şərait yaratmış və müxtəlif parametrlər üzrə axtarışın əhatəsinin genişlənməsi ilə nəticələnmişdir.

2016-cı ildə daha irəli gedilərək, oxucuların elektron kataloqdan və elektron kitabxanadan istifadəsini asanlaşdırmaq və axtarışın optimallaşdırılması məqsədilə Elektron kataloqla Elektron kitabxananın birləşdirilməsi həyata keçirilmişdir. Yəni hər hansı bir kitabı axtaran oxucu yenidən elektron kitabxanaya qayıtmadan birbaşa elektron kataloqda kitbların elektron versiyasını açaraq onları mütaliə etmək imkanına malik olur. Daha doğrusu, oxucuların vaxtına xeyli qənaət olunur və onlar artıq işlərdən azad olunurlar.

Milli Kitabxananın Elektron kitabxanasında yerləşdirilən elektron resurslardan oxucuların və istifadəçilərin sərbəst yararlanmalarına tam imkan yaradılmasına "Müəllif hüquqları və əlaqəli hüquqlar haqqında" qanunlar çox böyük əngəllər törədir. Bütün dünya miqyasında bu problem mövcuddur və müxtəlif iri kitabxanalar bu problemdən xeyli əziyyət çəkməkdədirlər. Milli Kitabxana öz oxucularının və istifadəçilərinin bu problemdən daha az əziyyət çəkmələrinə şərait yaratmaq məqsədilə xüsusi proqram işləyib hazırlamış və Elektron kitabxanaya daxil edilən elektron resurslardan maksimum istifadə təmin olunmuşdur. Belə ki, Elektron kitabxanaya daxil edilən elektron resursların surətinin çıxarılmasına, onların mətnlərinin digər elektron daşıyıcılara (CD disk, fləş-kart, email ünvanı və s.) köçürülməsini imkansız edərək onların yalnız ekrandan oxumasına imkan yaradılır ki, bu da müəlliflərlə və nəşriyyatlarla xoşagəlməz hadisələrin baş verməməsini təmin etmiş olur. Müəlliflər tərəfindən sərbəst istifadəsinə yazılı razılıq verilmiş elektron resurslar isə açıq şəkildə Elektron kitabxanada yerləşdirilir və azad şəkildə hamı tərəfindən istifadə olunur.

Milli Kitabxana hər il ərzində 15-20 adda müxtəlif materiallar nəşr edir və oxucuların istifadəsinə verir. Bura müxtəlif mövzularda tərtib olunmuş fundamental biblioqrafiyalar, metodik və biblioqrafik vəsaitlər, cari informasiya bülletenləri, Azərbaycan kitabının repertuarını təşkil edən kataloqlar, illiklər və elektron resurslar və s. daxildir. Bu materiallar oxucuların və tədqiqatçıların informasiya resurslarımız haqqında mütəmadi məlumatlandırılmasına və onların istifadəsini asanlaşdırmağa xidmət edir. Biz mütəmadi şəkildə bu vəsaitlər ba-

rədə saytımızda "Kitabxanamızın nəşrləri" bölməsində məlumat verir və onların tam mətnlərini də yerləşdiririk və beləliklə onlardan hamının fəal yararlanmasına köməklik göstərmiş oluruq.

Ümumiyyətlə bu gün Milli Kitabxanada hər şey oxuculara və istifadəçilərə həm kitabxananın divarları arasında və həm də virtual rejimdə ölkə daxilində və beynəlxalq miqyasda fəal kitabxana-informasiya xidmətlərinin göstərilməsinə yönəldilmişdir və bu məqsədlə inovativ və kreativ layihələrin həyata keçirilməsinə və təcrübəyə geniş tətbiqinə xüsusi fikir verilir. Məhz buna görə də son iki ildə artıq ikinci dəfədir ki, Milli Kitabxana tərəfindən müasir dövrdə kitabxanalar üçün yeni çağırışların, yeni ideyaların və yeni tələblərin əsas istiqamətlərinə həsr olunmuş Beynəlxalq Elmi Konfrans keçirilir və bu sahədə beynəlxalq təcrübədən və ölkə təcrübəsindən yararlanmaq üçün respublikamızın kitabxanaçılarına yeni imkanlar yaradılır. Uzaq Amerikadan, Malaziyadan, İngiltərədən, Rusiyadan, Qazaxıstandan və digər ölkələrdən gələn məruzəçilər öz kitabxanalarının təcrübələrini bölüşürlər və eyni zamanda biri-birindən öyrənirlər. Bu mənada belə tədbirlərin böyük əhəmiyyəti vardır və qarşılıqlı əlaqələrin yaranması və formalaşması baxımından da diqqətəlayiqdir.

Ədəbiyyat

1. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar).- Bakı, 2006.- 106 səh.
2. Tahirov K.M. Azərbaycan Milli Kitabxanasının fəaliyyətində elektron sistemə keçid ötən il prioritet istiqamət olmuşdur/Kərim Tahirov//Xalq qəzeti.- 2016.- 26 yanvar.- S.6.
3. Tahirov K.M. Dünya Milli Kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. Dərs vəsaiti.- B.: "Bakı Universiteti" nəşriyyatı, 2013.- 211səh.
4. Tahirov K.M. Gələcəyə çarış və kitabxana fəaliyyətinin əsas istiqamətləri/K.Tahirov// "Kitabxana-informasiya elmi:tədris və təcrübədə yeni çağırışlar" Beynəlxalq elmi konfransın materialları.- B., 2016.- S. 9-14
5. Инновации в библиотеках: сборник статей / Российская гос. б-ка, Научно-исслед. отд. библиотековедения; [сост. М.Я.Дворкина, Е.Н.Гусева].- М.: Пашков дом, 2010.- 132 с.
6. Качанова Е.Ю. Инновации в библиотеках / В.Ю. Качанова; науч. ред. В.А. Минкина; СПбГУКИ.- СПб.: Профессия, 2003.- 318с.
7. Качанова Е.Ю. Инновационно-методическая работа библиотек / Е.Ю.Качанова.- СПб.: Профессия, 2007.- 335 с.
8. Комплексная автоматизация библиотеки /Федеральное государственное унитарное предприятие «Главный информационно-вычислительный центр» Министерства культуры Российской Федерации (ФГУП ГИВЦ Минкультуры России).- Москва, 2010.- 20 с.